

Gilə Əliqızı

Cəhənnəm uzaqda deyil
Bir ömür beləcə dərdli keçərsə,
Eşqin şərbətini içəm,nə fayda.
Gediyi yollara həsrətlə baxam
İzindən min dəfə keçəm, nə fayda.

Sərsələr önümə dünya varını,
Yüz bahar əritsə,qışın qarını.
Toplayıb gətirsə,payız barını
Sünbülün,süsənin biçəm, nə fayda.

Əzəldən sevənlər yaralı qalıb,
Taleyi kəm qalıb,qaralı qalıb.
Bir ömür əllərim aralı qalıb
Ölüb o dünyaya köçəm,nə fayda.

Nəyim var şeirdən başqa
Nəyim var şeirdən başqa,
Yazıb-yazıb ovunduğum.
Bü dünyanın gərdişində
Dərdlərimlə sınandığım.

Könlüm ilə, aya düşdü,
Bir şirinşə paya düşdü.
Ümidlərim suya düşdü
Yalan oldu inandığım.

Yox, məni yarıdan başqa,
Rəngim yox sarıdan başqa.
Kimim var, Tanrıdan başqa
Köməyinə sığındığım.

## Kaş ki,yolum sənə çıxa

Kaş ki,yolum sənə çıxa,
Dönəm kölgənə, izinə.
Yatam ölüm yuxusuna
Başımı qoyub dizinə.

Kaş çəkiləm naxışında,
Öləm qalam baxşında.
İslanam eşq yağışında
Köçəm bulud gözünə.

Kaş, səs olam sorağında,
Şölə olam çırağında.
Könlünün od- ocağında
Yanam oduna, közünə.

## Biləydim

Bir rəssam olaydım,ağ kətan üstə,
Eşqin şəkilini çəkə biləydim.
Qələmlə yazdığım bu məsum eşqi
Kaş bir də rənglərə tökə biləydim.

Boyardım rənglərə,göy qurşağıtək,
Çəkərdim rənglərin min ahəngində.
Şirin xəyalların güllər misali
Rəngini seçərdim bahar rəngində.

Gözünün rəngini buluddan alıb,
Baxışın keçməyən yara çəkərdim.
Səsini,sözünü umud rəngində
Bircə bəxtimizi qara çəkərdim.

## Bir həsrət asılıbdır

Bir həsrət asılıbdır,
Ürəyimin başından.
Niye bir bahar keçmır,
Ömrümün yüz qışından.

Ömür axıb keçibdir,
Derdi peşə seçibdir.
Həsrətim su içibdir
Gözlərimin yaşından.

Bu nə yazı,nəsibdir,
Yolumu kim kəsibdir.
Bir fırtına əsibdir
Bəxtimin sən tuşundan.

## Ömür qısa,yollar uzun

Ömür qısa,yollar uzun,
Könlümdə dözüm qalmayıb.
Dilim susqun,ruhum yorğun
Deməyə sözüm qalmayıb.

Dəli deyir doğmam,yadım,
Şairə çıxıbdır adım.
Sönübdür alovum,odum
Ocağım, közüm qalmayıb.

Dərmanı yox bu acımın,
Düşübdür qaşı tacımın.
Yolu bağlanıb Laçının
Getməyə izim qalmayıb.